I. DEDİM ŞEİR YAZIM ONA

Anadan olmasının 50 illiyi münasibətilə

Dedim şeir yazım ona...
Sonra gördüm mən, doğrusu,
Yamanca zor bir işdir bu!
Atdım həmən bir kənara
İnad şair cürətini,
Çəkdim yalnız bir kağıza,
Sizə tanış, mənə tanış
Onun şair surətini!
Saçlar dümağ, bahar qarı,
Gündə yanmış geniş alın,
Xoş bir sifət!
O sifətdə bir iftixar,
Bəzən də bir yorğunluq var!
Diqqət etsən: zaman-zaman,
Cəbhə yarıb ordu basan,
Sonra isə məhəbbətlə,
Keçmişinə nəzər salan,
Öz işindən, hünərindən,
Şirin-şirin ləzzət alan,
Bir əsgərdə olur əlbət,
Belə alın, belə sifət!
Orda qalın qaşlar altda
Daim yanan iki göz var:
Ümman kimi o gözlərin
Aram-aram axışında.
Və bəzən də qəzəb dolu,
Alov dolu baxışında.
Şüar kimi dildə gəzən,
Dostlara bir arxa olan,
Düşmənləri döyüb əzən,

Qılınc taxmış neçə söz var!
O gözlərin baxışına
Etsən əgər sən tamaşa:
O baxışlar həyat verir,
Duran qəlbə, soyuq daşa.
O baxışlar bir ölkənin,
Bir torpağın baharıdır.
O baxışlar dost millətlər;
Qardaş xalqlar dünyasında
Azad olan,
Xoşbəxt olan
Bir millətin vüqarıdır!
O baxışlar bir hörmətdir
Uzaq-yaxın insanlara,
Orda böyük sevgi sözü,
Ən şirin bir nemət kimi
Düşmüş bu gün dastanlara!
Orda Xəzər şahə qalxmış,
Kür də sakit axıb gedir,
Orda Vaqif şeir yazır,
Bəsti şirin söhbət edir!
Orda Eldar nərə çəkir
Döyüşlərdə cəsarətlə!
O gözlərdə xeyirxahlıq,
Saf məhəbbət, mehribanlıq,
Körpə uşaq təbəssümü,
Bir də dönməz qəhrəmanlıq.
Tükənməyən bir dövlətdir!
O gözlərin parıltısı
Könüllərə bir zinətdir!
O gözlərin mənasına
Yer də dardır, göy də dardır,
O gözlərdə yazılmamış
Hələ neçə əsər vardır!..
Dedim, şeir yazım ona:
Sonra gördüm mən, doğrusu,
Yamanca zor bir işdir bu!

Atdım həmən bir kənara
İnad şair cürətini,
Çəkdim yalnız bir kağıza,
Sizə tanış, mənə tanış
Onun şair surətini!

2. ÖLÜM HAQQINDA SÖHBƏT

Vəfatı münasibətilə

– Öldürdü lap bu dərd bizi,
Lap sındırdı belimizi! –
Söylədin sən gözlərinin
Giləsini sıxa-sıxa,
Göz yaşını əlindəki
Bir yaylığa yığa-yığa.
Mənsə daldım pəncərədən
Uzaqlara, elə bu dəm
Gözlərimin qabağında
Gəlib durdu başqa dünya,
Başqa varlıq, başqa aləm:
Gördüm. Vətən laləzardır,
Qonmuş yerə ətirli yaz...
Kür qırağı... Ata yurdu...
Əvvəlki tək ötür bir saz!
Sən dedin ki, eşitmərik
Bir də onun xoş səsini,
Dedin bir də duymarıq biz
Onun isti nəfəsini.
Mənsə durub elə, bu an
Yerə-göyə baxan zaman
Onun yoldaş,
Onun qardaş,
Onun insan,
Onun şair nəfəsini,
Şirin həyat nəğməsini,

Gördüm milyon insanların
Milyon səsli dodağında,
Dənizlərin dalğasında,
Ağacların yarpağında!
Sən dedin ki, Səməd bir də
Olmayacaq aramızda
Olmayacaq mənim, sənin,
Bizim şair sıramızda.
Mənsə dedim: – Yalandır bu!
Ölməz şeir! Ölməz sənət!
Ölməz daim insan deyən
Həyat adlı əbədiyyət!
O çaxdı bir ildırım tək
bizim dağlar qucağında
O qaldı bir alov kimi
Babaların ocağında!
Xeyr, yalnız bunlar deyil,
Olmuş, yenə olacaqdır;
Onun özü–sıramızda
Onun sözü–sıramızda
Olacaqdır yazan əli,
Görən gözü–sıramızda!
Biz onunla döyüşlərdə
Hələ əsər yazacağıq,
Biz ölümə, fəlakətə
Bir son məzar qazacağıq!
Əlimizdə olacaqdır
Əllərinin hərarəti,
Nədir ölüm? Nədir hicran!
Burax, dostum bu söhbəti!

3. ŞAİRİN SƏSİ

Gözəl yay günü... Günəş yavaş-yavaş dağların dalına çəkilir. Mən qayıqla gölü o tərəfə keçərək meşədə asta addımlarla gəzir, bəzən güneylərə çıxıb çiyələk yığıram, bəzən də qoca bir kötüyün üstündə oturub xəyala gedirəm.

Elə bu vaxt mis sifətli, uzun ağ saçları çiyinlərinə tökülmüş bir adamın mənə tərəf gəldiyini gördüm.

Mən gözlərimə inanmadım. O, Səmədə oxşayırdı! Yox, bu necə ola bilərdi?! Axı o, aramızdan getmişdir! Bir müddət nə edəcəyimi bilmədim. O isə gəlib mənim qarşımda dayandı.

Səməd

Mənəm! Tanımadın! Yox, şübhə etmə,
Yaxın gəl, qardaşım, uzağa getmə!

Mən

Yox! Yox! İnanmayır gözüm, doğrusu,
Hoqiqət deyildir, bir yuxudur bu!
Ürəyim dözməyir çəkdiyin dağa,
Ölənlər qalxmayır bir də ayağa!

Səməd

Elədir, qalxmayır... Bu həqiqətdir...
Mənisə yaşadan bir məhəbbətdir!
Doğulub dünyaya gəldiyim gündən
Vermişəm qəlbimi bu torpağa mən,
Bu yaşıl meşəni bir gün görməsəm,
At minib getməsəm əgər bir yana,
Mən qonaq olmasam dağda çobana,
Görməsəm təmtəraq, görməsəm sükut,
Başımın üstündən keçməsə bulud,
Baxmasam dünyanın xəritəsinə,
Səsimi qatmasam haqqın səsinə,
Alışıb sinəmdə yanmasa ürək,
İçməsəm bu sudan, dərməsəm çiçək
Könlüm sakit olmaz...

Bilirsən ki, sən
Günəşsiz, insansız yaşamadım mən!..

Mən

Sənindir, sənindir eşitdiyim səs,
Sənindir duyduğum bu isti nəfəs!
Ölüm qılınc çəkdi, ayırdı bizi,
Ayırdı dost olan ürəyimizi!..

Səməd

Bəs niyə ağladın? Nədir göz yaşı?
Belə qarşılamaz qardaş-qardaşı...

Mən

Danlama... Demə ki, bu səadətdir,
Bu görüş özü də bir fəlakətdir!

Səməd

Mən varam...
Mən yoxam...
Düz söylədin sən,
Amma ki, unutma: ömrüm boyu mən
Nə qədər qaldımsa çətində darda,
Vaxtsız qocaldımsa vuruşmalarda,
Bəzən itirdimsə dostu, yoldaşı
Bir insan görmədi məndə göz yaşı.
Haqq üçün, dost üçün döyüşdə hər an
Qızıl qanlar axdı mənim alnımdan!..

Mən

Danış, söhbətindən mən heç doymadım,
Öləndə dizinə mən baş qoymadım.
Gecikdim bir qədər... baxıb üzünə,
Mən qulaq asmadım o son sözünə.

Səməd

Bilirəm, gecikdin... İncimədim mən:
Ölümdən daha pis günlərimdə sən
Mənimlə olmusan... Yaxşı qulaq as,
Atalar sözüdür: haqq unudulmaz!
İndisə... gəl bir az gəzək dağları,
Bizim quşqonmayan qayalıqları...

Biz meşədən çıxıb açıq bir yerə gəldik. Burada quşlar oxuyur, ağ, sarı, qırmızı, mavi dağ çiçəkləri bir-birini çağırırdı...

Səməd adəti üzrə saçlarını dala atdı, bu gözəl mənzərəni seyr etməyə başladı. Bir az sonra isə o əyilərək, əlləri ilə çiçəkləri oxşadı.

Mən bu vaxt ona baxırdım: o, əllərini çiçəklərin üstündə elə gəzdirirdi ki, elə bil mehriban bir ata öz körpə uşaqlarını oxşayırdı...

Mən

Gözəl çiçəklərdir!.. Hər səhər tezdən
Gələrək bunları seyr edirəm mən.

Səməd

Seyr etmək? Bu azdır! Gəl, yaxşı bir bax,
Üstündə durduğun bu yer, bu torpaq,
Saçında oynayan bu sərin külək,
Sinənə basdığın bu gül, bu çiçək,
Sıldırım qayalı bu uca dağlar,
Bizə laylay deyən gözəl bulaqlar...
Bir şirin nemətdir, bir böyük aləm,
Əfsus, bunlar haqda az yazmış qələm!
Ölüm vaxtsız kəsdi mənim yolumu,
Aldı qələmimi, qırdı qolumu,
Mən başa vurmadım öz mənzilimi,
Öz sənət dünyamı, söz mənzilimi!
Bu ağır bir dərddir!.. Amma ki, heç mən
Əlimi üzmədim, qardaşım, sizdən –
Şair dostlarımdan... bilin ki, hər vaxt
Sənətkar vətənlə olacaq xoşbəxt!
Sevin bu torpağı, bu təbiəti,
Bunlardır yaşadan şeiri, sənəti!..

Mən

Düzdür, az yazmışıq... Sözlərin haqdır.

Səməd

Sənətkar əsərlə yaşayacaqdır!
Başqa nə vardırsa gəldi-gedərdir,
Şərsiz keçən gün bil ki, hədərdir!..

Bu vaxt yaxında, sərt qayaların dalında, insan gülüşləri, külüng və motor səsləri eşidildi. Biz bir an sakit dayandıq, bu səsləri dinlədik.

Mən

Yenə fəhlələrdir!

Səməd

Onlardır, bəli
Dağlarda yol açır insanın əli.
Sanki yüngülləşdi bu an bədənim,
Gözümdə qalmadı istəyim mənim.
Mən dedim, dağlara yollar çəkilsin,
Yollar kənarında güllər əkilsin,
Dedim, evlər olsun burda yan-yana,
Təbiət qoynunu açsın insana!
Qəlbində qalmasın elin arzusu,
Bizə gəl-gəl desin Göygöl, İstisu!
Dedim, bizim dağlar qoy abad olsun,
Ellərin qismәti xoş həyat olsun!
Dedim, mən görməyim bir də ölüm, qəm,
Gözəllik içində yaşasın aləm!

Mən

Hər şeirin, hər sözün qopdu ürəkdən,
Böyük əməllərin şairisən sən!

Səməd

Gəl, gəl gedək ora!.. Dözməyir ürək,
Onlarla əl tutub görüşək gərək.
Çox şirin olsa da quşların səsi
Hər şeydən gözəldir insan nəfəsi!

Mən

Ora sıldırımdır, qorxuncdur yaman!..

Səməd

Gərək, çətinlikdən qorxmasın insan!
Zəhmətsiz iş yoxdur... Düşünsən əgər,
Asan qazanılan, asan da gedər.
Sənət də belədir...
Dözüb hər dərdə,
Ürəyin vurmasa düşüncələrdə,
Ən ağır bir işə addım atmasan,
Ömür çürütməsən, saç ağartmasan.
Bir məna görməsən bu yaşamaqda,
Getməsən hünərlə daim qabaqda,
Döyüşdə hədəfi düzgün vurmasan,
Bəzən yıxılmasan, bəzən durmasan..
İnan ki, qardaşım, belədir əlbət,
Yaranmaz sənətkar, yaranmaz sənət!..

Mən

Əfsus ki, bunlarsız düşərək moda,
Şairəm deyənlər çoxdur dünyada!..

Səməd

İndi başqa hava çalır bu zaman,
Onlar çıxacaqdır bir-bir ortadan!
Gəl gedək oraya... Vaxt keçir artıq,
Çökəcək dağlara yenə qaranlıq...

Biz uca qayalar aşdıq, keçilməz yollardan keçdik... Mən birdən ətrafıma baxdım, Səmədi görmədim. Qorxu və həyəcanla onu səslədim.

Mən

Hardasan, qardaşım, Səməd, hardasan?!

Səmədin səsi

Mən getdim... Axtarma... Çox gecdir, inan!
Odur, şər qarışır... Dağlara bax bir,
Gözləyir yolumu Füzuli, Sabir...

Mən

Sən yenə tək qoyub gedirsən məni,
Bir də görməyəcək gözlərim səni.

Səməd

Yox, yox... Getməliyəm! Düşmə təlaşa,
İndisə mənzili özün vur başa!
Gəlmişdim sənlə danışım bir az,
Bilirdim söhbətim faydasız olmaz.
Nə vaxt lazım olsam, utanma heç sən,
Çağır, gələcəyəm, ölməmişəm mən!
Mən də bu meydanda döyüşən zaman
Vaqifi köməyə çağırdım hər an.
Əslindən, kökündən ayrılsa bir kəs
Döyüşdə qələbə qazana bilməz.
Di, sağ ol, mən getdim!..

Mən

Yox, dayan, getmə,
Yenə də ömrümü tar-mar etmə!..
O getdi... Durmadı, söhbəti bitdi.
O, yerdən gəlmişdi, yerə də getdi!
Yox, yox! Qulağımda qaldı hər sözü,
Qaldı ürəyimdə Səmədin özü!..

1956

4. QƏBRİN ÜSTƏ DÜŞDÜ İLK QAR...

Bu gün səhər narın-narın
Qəbrin üstə töküldü qar.
Bu gün səhər başdaşını
Döydü soyuq, öpdü ruzgar,
Qəbrin üstə düşdü ilk qar!
Mən də gəldim bu gün səhər,
Gəldim bura bir hörmətlə
Qucaqlayıb məzarını
Öpdüm sonsuz məhəbbətlə!
Yox! yox! Yalnız mən deyiləm,
Burda xeyli adam vardır.
Sənin şeirin, sənin sözün
Onlara bir yadigardır!
Sən sevərdin insanları!
Cən sevərdin ilk baharı!..
Sən sevərdin sərt küləyi,
Sən sevərdin qışda qarı!..
Belə soyuq günlərdə sən,
Tüfəng alıb çıxdın ova,
Keçdin bizim o yerlərdən
Maral, ceyran qova-qova!
Bəzən də sən çobanlarla
Qar üstündə ocaq çatdın,
Qışda uzun gecələri
Meşələrdə təkcə yatdın,
Qar üstündə ocaq çatdın!
Həmin soyuq, bax, həmin qar
Məzarına bir həmdəmdir,
Bu ünsiyyət, bu saf dostluq
Əl çatmayan bir aləmdir!
Xeyr! Yağan qar deyildir!
Sussun dili küləklərin!
Qəbrin üstə çiçək açmış
Əməllərin, diləklərin!

1957

TAR

M.Müşfiqin əziz xatirəsinə

Gecə keçmiş... Kənd yatır...
Uzaqlara düşüb qar,
Harda isə yenə də
Şirin-şirin ötür tar.
Barmaqlar oynadıqca
Nizamla pərdələrdə,
Fikrim qərar tutaraq
Durmayır əsla yerdə.
Qəlbimdə şam yandırır,
Babaların öz əli;
Füzulinin, Vaqifin
Alov dolu qəzəli!
Uzaqlarda ötür tar...
Gözümdə yar həsrəti,
Alnımda bir millətin
Bir əbədi şöhrəti!
Uzaqlarda ötür tar...
Köksündə coşğun ümman,
Dinləmişdir bu səsi
Şair Müşfiq bir zaman!
Uzaqlarda ötür tar...
Söylə, nəsən sən belə?
Od tutub alovlanır
Səni kim alsa ələ?!
Sən–nəğməsən! Qılıncsan!
Öt, ey tarım, sən müdam!
Hər pərdəndə bir aləm,
Hər səsində bir ilham!
Öt, ey tarım, öt yenə!
Mən səninəm, sən mənim,
Sənsiz pərişan olar
Bu sevimli vətənim!

Öt, səsini dinləyim
Olsam belə mən harda:
Yaşadıqca həyatda,
Əgər ölsəm – məzarda!

1964

ŞAİRİN ÖLÜMÜ

Ballada

Nazim Hikmətin ölümü münasibətilə

– Nazim öldü! – dedilər
İnanmadım əsla mən,
İnanmadım heç buna.
Gülxana parkındakı
O cövüz ağacının
Qoparaq öz kökündən
Tufanda solduğuna!
– Nazim öldü! – dedilər
İnanmadım mən... Ancaq
Ürəyimin başını
Deşdi iti bir bıçaq!
Sinəmə töküldü Kür,
Dünya uçdu başıma,
Ağladım hönkür-hönkür.
Kişi də ağlayarmı?
Taleyimə bax mənim!
Günahım yox bu işdə,
Tir-tir əsir bədənim;
İki şair dəfn etdim
Əvvəl 56-da,
Sonra da 63-də.
– Nazim öldü! – dedilər
Könüllər dalğalandı,
Uzaq-yaxın şairlər

Həsrətlə onu andı.
Neruda uzaqlarda,
Tixonov-Moskvada,
Səməd isə məzarda...
İstanbul göylərindən
Töküldü göz yaşı tək,
Ulduzlar düşdü suya –
Nazimin ulduzları!
Əsdi acı bir külək
Dolaşdı boz düzləri.
Türk fəhləsi, kəndlisi
Bu dərddən xəbər tutdu,
Öz dərdini unutdu!
Qan dolu bəbəkləri
Fəryad etdi insanlar;
Nazimin insanları,
Nazimin çiçəkləri!
Mənsə andım keçən il
Qaqrada, payız vaxtı,
Onunla son görüşü:
O, necə də mehriban.
Ah, necə də xoşbaxtdı?!
Ona şeir oxudum,
Oturmuşduq üz-üzə.
Arabir çiynim üstdən
O baxırdı dənizə.
Dəniz kimi saçı boz,
Dəniz kimi qüdrətli
Dəniz kimi tükənməz;
Dəniz kimi köksü gen,
Dəniz kimi dövlətli!
– Nazim öldü! – dedilər.

Kim tanımır bu adı?
Sındı Şərqdən ucalan
Bir qartalın qanadı!
Susdu Şərqi zülmətdən
Aydınlığa çağıran,
Susdu Şərqin dərdini

Bayraq edib əlində
"Üsyan!" deyə bağıran
İnqilabçı şairin
İnqilabçı ustadı!
Kim tanımır bu adı?
– Nazim öldü! – dedilər.
İnanmadım buna mən.
Keçdi bir ordu kimi
Gözlərimin önündən
Kommunist bir şairin
Kommunist misraları;
Hər kəlmənin qəlbində
Günəş, həyat, məhəbbət.
Dayanmayan bir yürüş!
Bəzən acı bir həsrət,
Bəzən dadlı bir görüş!..
Bəzən sınır kəlmələr
Bir dilbərin gözündə,
Bəzən dönüb bir oxa
Qayadan, daşdan keçir!
Onun ilham dəryası
Bu torpağın üzündə
Neçə eldən su içir!..
Hərdən şeir bənzəyir
Qərənfilə, nərgizə.
Dünya olur laləzar,
"Gəl, gəl!" söyləyir bizə.
Hərdən isə hər tini
Edib özünə səngər,
Alovlardan don geyib
Şer olur bir əsgər,
Hər söz barıt qoxuyur.
O, sonuncu düşmənə,
Bir son kəfən toxuyur!
Yox, yox! Susun, susun siz!
Ölərmi Nazim Hikmət?
Şairə nə ölüm var,
Nə də ki, istirahət!

1963

GƏLDİ YAR...

Həyat yoldaşım Zakiyyəyə

Pəncərəmdə əsdi meh,
Dedi: – Şair, gəldi yar!
– Bəs, sən kimsən? – dedim mən.
Dedi: – Onun nəfəsi,
Unutdunmu məni sən?
Günəş düşdü qapıma,
Dedi: – Şair, gəldi yar!
– Bəs, sən kimsən? – dedim mən.
Dedi: – Nədir bu söhbət?
Mənəm, dostum, o qızın
Gözündəki parıltı,
Qəlbindəki hərarət.
Ağacda bülbül ötdü,
Dedi: – Şair, gəldi yar!
– Bəs, sən kimsən? – dedim mən.
Dedi: – Onun səsiyəm.
Yolunu gözlədiyin
O qızın nəğməsiyəm.
Bağçada lalə açdı,
Dedi: – Şair, gəldi yar!
– Bəs, sən kimsən? – dedim mən.
Dedi: – Könül verdiyin
Gözəlin yanağıyam.
Bu evin qonağıyam!
Çıxdım çölə, gördüm ki,
Doğrudan da gəlib yar, –
Yox, yox! Təkcə yar deyil,
Evimə gəlmiş bahar!

1955